***Biz çox açıq şəkildə deyirik ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik... Bu, atəşkəs razılaşması yox, tam sülh razılaşması olacaq. Ermənistandan isə bir cavab yoxdur. Ümid edirəm ki,  Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər.***

***Azərbaycan Prezidenti İlham Əliyevin***
***İspaniyanın "El Pais" qəzetinə müsahibəsindən***
***14 dekabr 2021-ci il. Brüssel.***

# Azərbaycanın sülh çağırışları yüksək qiymətləndirilir

***Zaman dünyanın bütün xalqlarını və dövlətlərini amansız sınaqlarla üz-üzə qoymuşdur. Təbii kataklizmlər, iqlim dəyişmələri, gündən-günə artmaqda olan içməli su problemi, epidemiya və pandemiyalar bəşəriyyət üçün bir tərəfdən problem yaradırsa, digər tərəfdən də müharibə və münaqişələrin törətdiyi fəsadlarla mübarizələrdəyik.***



Çox təəssüf ki, münaqişə və müharibələrdən ən çox zərərdidə olmuş ölkələrdən biri də Azərbaycandır. Bunu təkcə 20 Yanvar faciəsi, Xocalı soyqırımı və bir əsrdən də çox davam edən deportasiyalara görə demirik. Bizim həm də vəhşi qonşularımız tərəfindən tamamilə dağıdılmış şəhər, qəsəbə və kəndlərimiz də var ki, onların tam şəkildə bərpa olunmasına, bəlkə də, on illərlə vaxt lazımdır. Amma bütün bunlara baxmayaraq, Azərbaycan daim sülh, əməkdaşlıq və mehriban qonşuluq çağırışları ilə çıxış etmişdir.

2020-ci ilin son günlərində rus ekspertlərdən biri yazmışdı ki, Azərbaycan dövlətinin 44 günlük müharibəni öz torpaqlarının sonuncu qarışı da azad olunanadək davam etdirməyə haqqı da var idi, beynəlxalq dəstəyi də, daxili imkanları da: " Rusiya rəhbərliyi də bu əməliyyatların haqlı olduğunu dilə gətirmişdi. Ancaq həmişə sülh tərəfdarı olan Azərbaycan rəhbərliyinin daha çox canlı qüvvə itirməkdən qorxan Ermənistanın Kremlə yalvarışları nəticəsində  təklif olunan varianta razılaşması müdriklik və böyüklük əlaməti idi".

Türkiyəli həmkarımız Əli Ünsal isə Azərbaycanın 44 günlük müharibədən sonra nümayiş etdirdiyi səbir, təmkin və sülhsevərliyi bütün dövlətlər üçün nümunə adlandırır: "Azərbaycan Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etsə də, özünü diktə edən, hegemonluq iddiasında olan ölkə kimi aparmadı. İlham Əliyev və onun komandası müharibədən sonrakı bütün məsələlərin sülh yolu ilə həllini üstün tutdu ki, bu da xaıqın və dövlətin mənəvi zənginliyinə dəlalət edir. Bu faktı hamı başa düşüb qəbul etsə də, təəssüf ki, Ermənistan rəhbərliyi İlham Əliyev müdrikliyini hələ də dərk edə bilmir".

Ancaq İrəvandan fərqli olaraq, dünyanın digər  paytaxtlarında Azərbaycanın sülhsevər siyasəti təqdir olunur və yüksək qiymətləndirilir.

**(ardı 2-ci səhifədə)**

# Azərbaycanın sülh çağırışları yüksək qiymətləndirilir

**(əvvəli 1-ci səhifədə)**

Bir neçə gün əvvəl – martın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək, onunla Cənubi Qafqazda post-münaqişə dövrünü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesini, o cümlədən, kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələlərini müzakirə edib.

Ötən il dekabrın 14-də isə Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında görüşdə də rəsmi Bakının bu mövqeyi açıq şəkildə dəstəklənmişdi. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunmuş və Şarl Mişelin Azərbaycan Respublikasına səfəri xatırlanmışdı. Eləcə də, Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulanmış, Prezident İlham Əliyev bu məsələlərə verdiyi töhfəyə görə Şarl Mişelə təşəkkürünü bildirmişdi.

Xatırladaq ki, Azərbaycan Prezidentinin tutduğu mövqe ABŞ-da da yüksək qiymətləndirilir. Belə ki, cənab Mişelin Bakıya zənginin ertəsi günü – martın 15-də İlham Əliyevə Ağ evdən zəng gəlmişdir. Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevlə telefon zəngi zamanı Cənubi Qafqaz regionunda postmünaqişə dövrünə aid məsələlər, o cümlədən, Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparılmışdır. Telefon danışığı əsnasında regional təhlükəsizlik məsələləri də müzakirə edilmişdir. ABŞ Dövlət katibi Ukraynaya humanitar yardım göstərdiyinə görə Azərbaycana təşəkkürünü bildirmişdir.

Əminliklə və məmnuniyyətlə qeyd edə bilərik ki, dövlət başçımızın nümayiş etdirdiyi sülh siyasətinin müsbət nəticələrini daim görürük. Məsələn, dövlət başçımız ötən il noyabrın 28-də Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşündə də Azərbaycanın mövqeyinin sülh və əməkdaşlıqdan ibarət olduğunu ifadə etmişdi. Nəticədə bu il martın 11-də Bakıda Azərbaycanla İran arasında, qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalandı. Bu isə o deməkdir ki, ölkəmiz 44 günlük Vətən müharibəsində təmin etdiyi böyük qələbəsi ilə regionda yeni reallıq yaradıb. Bu yeni reallıq region ölkələrinin baxışlarını dəyişib.

Türkiyə Cümhuriyyəti ilə imzaladığımız “Şuşa Bəyannaməsi”, Rusiya Frderasiyası ilə imzaladığımız “Müttəfiiqlik haqqında Bəyannamə” Avropa İttifaqı, həmin qurumun üzvlərinin əksəriyyəti ilə qurulmuş sıx əməkdaşlıq, eləcə də Pakistan, Qazaxıstan, Gürcüstan, Tükmənistan və digər dövlətlərlə səmərəli əməkdaşlıq ölkəmizin sülhsevərliyinə beynəlxalq aləmdə verilən yüksək qiymətin göztəricisidir.

Eləcə də, Qoşulmama Hərəkatına sədrliyimizin uzadılması haqqında 120 dövlətin yekdil rəylə təklif irəli sürməsi də rəsmi Bakının yeritdiyi xarici siyasətdə sülh və əməkdaşlığa böyük yer verməsinin uğurlu nəticəsidir.

Yadımdadır, ötən il dekabrın 2-də ADA Universitetində keçirilən “Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumunun “Sülh əlaqələndiriciləri” təşkilatının təsisçisi və baş icraçı direktoru Jan Kristof Basın moderatorluğu üçün keçən plenar sessiyasında Azərbaycanın qlobal sülhə verdiyi dəyərli töhfələr yüksək qiymətləndirilmişdi. Böyük Britaniyanın Koventri Universitetində Sülh, Etimad və Sosial Münasibətlər İnstitutunun qurucusu və rəhbəri, professor Mayk Hardi foruma videoformatda qoşularaq qlobal təşəbbüslə bağlı fikirlərini bölüşmüşdü: “Biz sülh cəmiyyətinin dayanıqlı olaraq inkişafından danışırıqsa, onu təmin etmək yollarını, təşəbbüsləri də dəstəkləməliyik”.

Avropalı mütəxəssis əlavə etmişdi ki, Azərbaycan dövləti daim belə təşəbbüslərlə çıxış edir və dəstəklənir.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 18 mart.- S.1;2.